# Musiqili Teatrda Polad Bülbüloğlunun 80 illiyi münasibətilə tamaşa nümayiş olunub

Azərbaycan Dövlət Akademik Musiqili Teatrında Xalq artisti, görkəmli bəstəkar Polad Bülbüloğlunun 80 illiyi münasibətilə Yuli Qusmanın eyniadlı filmi əsasında "Qorxma, mən səninləyəm" tamaşası nümayiş olunub.



Nümayişdən əvvəl jurnalistlərə açıqlama verən tamaşanın quruluşçu rejissoru Cavid İmamverdiyev bu ideyanın təxminən iki il əvvəl yarandığını bildirib: "Biz teatrda daha əvvəl fərqli quruluşda hazırlanan eyniadlı tamaşanı tanınmış rejissor və ictimai xadim, 60-cı illərin KVN komandasının məşhur kapitanı, Xalq artisti Yuli Solomonoviç Qusmanın da 80 illik yubileyi münasibətilə göstərmişik. Əminəm ki, bu səhnə əsəri də tamaşaçıların müsbət rəyini qazanacaq".

Tamaşanın bədii rəhbəri teatrın direktoru, Əməkdar incəsənət xadimi, sənətşünaslıq üzrə fəlsəfə doktoru Əliqismət Lalayev, quruluşçu dirijoru Əməkdar incəsənət xadimi Fəxrəddin Atayev, xormeysteri Əməkdar artist Vaqif Məstanov, quruluşçu baletmeysteri Əməkdar artist Emin Əliyev, quruluşçu rəssamı Vüsal Rəhim, konsertmeysteri Fidan Əliyeva, rejissor assistenti Tamilla Aslanovadır.

Polad Bülbüloğlunun sehirli musiqilərinin yer aldığı səhnə əsərində Xalq artistləri İlham Namiq Kamal, Əməkdar artistlər Boris Qrafkin, Ələkbər Əliyev, Əzizağa Əzizov, Çingiz Əhmədov, Nahidə Orucova, Şövqi Hüseynov, Almaz Ələsgərova, Prezident mükafatçısı Mehriban Zaliyeva, aktyorlar Rauf Babayev, Elçin İmanov, Ülviyyə Əliyeva, Eleonora Mustafayeva, Nicat Əli, Leonid Klets, Fərid Rzayev, Telli Hüseynova, Təranə Əliyeva, Əli Kərimov, Murad Əliyev, eləcə də teatrın xor və balet truppasının artistləri iştirak ediblər.

Azərbaycan.- 2025.- 7 mart (№51).- S.11.